Beynəlxalq ictimai - siyasi, elmi - nəzəri jurnal

Fəlsəfə və Sosiologiya

UOT 101.1:316
DOI:10.30546/3006-0346.2024.5.83.082

# REGİONLARDA ƏHALİNİN SOSİAL-MÜDAFİƏ SİSTEMİNİN MODERNLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ

**FƏRİDƏ CƏBRAYILOVA**
*Sumqayıt Dövlət Universitetinin Fəlsəfə, sosiologiya və politologiya kafedrasının baş müəllimi, fəlsəfə üzrə fəlsəfə doktoru*

*E-mail: cebrayilova_fira@mail.ru*

Dövlətin sosial siyasətinin mühüm aspektini əhalinin sosial müdafiəsi təşkil edir. Sosial müdafiə əsasən aşağıdakı tədbirləri nəzərdə tutur: konstitusiya tədbirləri (qanunvericilik səviyyəsində təsdiq edilən), əməyin mühafizəsi və təhlükəsizliyi tədbirləri, zəmanətli minimum əmək haqqının müəyyən edilməsi, ailəyə, analığa, atalığa və övladlığa, əlillərə və ahıl vətəndaşlara dövlət dəstəyinin təmin edilməsi, sosial xidmətlər sisteminin inkişafı, dövlət pensiya və müavinətlərinin müəyyən edilməsi, o cümlədən nağd pul müavinətləri, subsidiyalar və birdəfəlik ödənişlər, yaşayış minimumuna qədər yerli əlavə ödənişlər, yoxsulluqla mübarizə proqramları, sosial xidmətlər, uşaqların saxlanması, onlara xidmət göstərilməsi, təhsili, təlimi və dəstəklənməsi üçün tədbirlər, sosial müavinətlər, tibbi, sosial, əmək, psixoloji uyğunlaşma və reabilitasiya, gerontoloji qulluq, stasionar və qeyri-stasionar sosial xidmət müəssisələrində texniki xidmət, ərzaq yardımı, xeyriyyə və digər tədbirlər [1].

Sosial müdafiənin əsas formaları sosial təminat, sosial yardım və sosial dəstəkdir. Sosial müdafiə sistemi dedikdə, bəzi əlverişsiz şərtlər - işin və ya ailə başçısının itirilməsi, qocalıq, xəstələnmə, bədbəxt hadisə və s. səbəbilə iqtisadi cəhətdən asılı olan və sərbəst şəkildə özünə gəlir qazana bilməyən insanları zəruri həyati nemətlərlə təmin edərək onların müəyyən rifah səviyyəsini dəstəkləyən sistem nəzərdən keçirilir.

Sosial müdafiə sisteminin modernləşdirilməsi onun təkmilləşdirilməsini, yeni tələb və standartlara, keyfiyyət göstəricilərinə, müasir baxışlara, ideyalara, ehtiyaclara uyğunlaşdırılmasını nəzərdə tutur. Bir sözlə, modernləşdirmə ənənəvi dövlətdən müasir vəziyyətə keçidin makro prosesidir.

Müasir qloballaşma şəraitində bir çox sektorda, o cümlədən sosial müdafiə sistemlərinin formalaşması prosesində əhalinin rifah səviyyəsi bir sıra elementlərlə şərtlənir: ictimai həyatın demokratikləşməsi, demoqrafik dəyişikliklər, inkişafın sistem paradiqmasının dəyişməsi və s. Sosial müdafiə cəmiyyət üzvlərinin qida və sığınacaq kimi əsas insan ehtiyaclarına ödəməni təmin etmək üçün nəzərdə tutulmuş dövlət dəstəyi növüdür.

Sosial müdafiə sisteminin tarixinə nəzər salsaq, bu fenomen XIX əsrin ikinci yarısı - XX əsrin əvvəllərində Qərbi Avropa ölkələrində formalaşmağa başlamış, sistemin qurulması barədə ilk sosial qanun isə Almaniyada kansler Otto fon Bismark tərəfindən qəbul edilmiş və digər Avropa ölkələri də bu təcrübədən yararlanmağa başlamışlar [3].

Azərbaycan Respublikasının timsalında regionlardakı əhalinin sosial müdafiəsi sisteminin formalaşması və inkişafı prosesinin təhlili göstərir ki, respublikanın sosial-iqtisadi inkişafı əhalinin sosial müdafiəsi sektorunun daim təkmilləşdirilməsinə təkan vermişdir. Belə ki, Azərbaycanın müstəqilliyinin bərpasından sonrakı illərdə Heydər Əliyev yeni iqtisadi sistemə keçid prosesində əhalinin sosial maraqlarının təminatını, xüsusən aztəminatlı insanların sosial müdafiəsini, iqtisadi potensialın ilk növbədə xalqın rifahına yönəldilməsini dövlət qarşısında strateji vəzifələrdən biri kimi müəyyən etdi. Heydər Əliyevin müəyyənləşdirdiyi strategiya bazar iqtisadiyyatına keçid şəraitində aparılan islahatların əhalinin rifahına mənfi təsirinin azaldılmasını və köklü iqtisadi islahatlar şəraitində etibarlı sosial müdafiə sisteminin qurulmasını, milli iqtisadiyyatın sosialyönümlük prinsipi əsasında inkişafını şərtləndirdi.

Bu gün regionlarda əhalinin sosial müdafiə sisteminin fəaliyyətini tənzimləməyə imkan verən ən mühüm resurslar bunlardır:

-sosial müdafiə sisteminin modernləşdirilməsinin ilkin mərhələsində prioritet kimi yaradılmış kadr hazırlığı sistemi,

- sosial xidmət müəssisələrinin balanslaşdırılmış infrastrukturu,

- yeni ideologiyaya malik informasiya texnologiyaları,

- rayon və şəhər əhalisinin sosial müdafiəsi şö-

bələri (idarələri),

- normativ, informasiya və metodoloji baza,
- yeni sosial texnologiyalar,
- sosial xidmət sektorlarında könüllülər və könüllülər mərkəzləri,
- sosial məsuliyyət daşıyan bizneslərlə əməkdaşlıq [4].

Sosial müdafiə konsepsiyasının nəzəri əsasını regionlarda sosial sabitliyin qorunması və vətəndaşların yoxsullaşmasının qarşısının alınması təşkil etməklə, aşkar paternalizm xarakteri daşıyır.

Sosial müdafiə sistemlərinin tarixi də sübut edir ki, əhalinin böyük bir hissəsinin kasıb olduğu ölkələrdə hökumətin sosial müdafiə tədbirləri əsasən kateqorial xarakter daşımaqla sosial sığortanın tədricən inkişafı ilə müşayiət olunur. Belə ki, sosial müdafiənin ilk yaranma dövründə əsas paradiqma sürətli iqtisadi inkişaf (sənayeləşmə) şəraitində işçilərin və onların ailələrinin gəlirlərinin istehsalatda bədbəxt hadisələrdən, xəstələnmədən, yaşlanmadan və sairə bu kimi hallardan sığortalanmasını və bunun əsasən biznes hesabına həyata keçirilməsini ehtiva edirdi (sosial müdafiənin Bismark modeli). Növbəti mərhələdə sosial müdafiənin yeni paradiqması meydana gəlir ki, burada başlıca məqsəd cəmiyyətin bütün üzvlərinin xəstəliklərə, qocalığa və ya digər bu kimi hallara məruz qaldıqda sosial baxımdan minimum müdafiə hüququnun formalaşmasından ibarətdir (sosial müdafiənin Beveric modeli). Bu halda sosial müdafiə tədbirləri tamamilə dövlətin hesabına həyata keçirilir. Bundan sonrakı paradiqma hər iki modelin sintezini və birlikdə tətbiqini nəzərdə tutur ki, bu zaman xərclər də kateqorial sosial təminat və sosial yardım üzrə dövlət tərəfindən, sosial sığorta xərcləri üzrə isə biznes (işəgötürən və işçi) tərəfindən ödənilir.

Azərbaycan Respublikası regionlarının inkişafı ölkədə uğurla həyata keçirilən davamlı sosial-iqtisadi inkişaf strategiyasının mühüm tərkib hissəsidir. Regionların inkişafı sahəsində qəbul edilmiş və uğurla həyata keçirilmiş dövlət proqramlarında, habelə regionların sosial-iqtisadi inkişafına dair əlavə tədbirlərlə bağlı sərəncamlarda nəzərdə tutulmuş vəzifələrin icrası ölkədə qeyri-neft sektorunun davamlı inkişafına, regionlarda kommunal xidmətlərin və sosial infrastruktur təminatının keyfiyyətinin yüksəldilməsinə, sahibkarlıq mühitinin daha da yaxşılaşdırılmasına, investisiya qoyuluşunun artmasına, yeni müəssisələrin, iş yerlərinin açılmasına və nəticədə, əhalinin məşğulluğunun artırılmasına və yoxsulluq səviyyəsinin azaldılmasına təkan vermişdir [1]. Azərbaycan Respublikasında son 20 il ərzində sosial müdafiə sistemi vasitəsilə ödənilən vəsaitlərin strukturu ölkəmizdə bu sistemin təkamülünün dünyadakı ümumi mənzərəyə uyğun olduğunu göstərir.

İnsanların sosial rifah halının yaxşılaşdırılması yönündə qəbul edilmiş qanunlar, fərman və sərəncamlar, əhalinin sosial müdafiəsi sahəsində əsaslı islahatlar uğurla həyata keçirilir. Sosial müdafiə sistemi bu sahədə mühüm yer tutur və insanların həyat şəraitinin yaxşılaşdırılmasına xidmət edir. Bunun üçün isə düzgün sosial siyasətin olması vacib şərtdir. Lakin iqtisadiyyatda uğur qazanmadan, yüksək maliyyə imkanlarına malik olmadan sosial siyasətin inkişafından danışmaq yersizdir. Hazırda aparılan sosial siyasət cəmiyyətin hər bir fərdini əhatə edir. Yəni aztəminatlı ailələrə, müharibə veteranlarına və əlillərə mənzillərin, avtomobillərin verilməsi, ailə, qadın və uşaq problemlərinə qayğı və diqqət sosial siyasətin başlıca məqsədlərindən biridir.

Bundan başqa, əhalinin məşğulluğunun təmin edilməsi, uğurlu gənclər siyasəti də ön plandadır. Həmçinin yoxsulluğun aradan qaldırılması üçün mühüm şərtlər içərisində əhalinin imkansız təbəqələrinə ünvanlı sosial yardımların verilməsi əhəmiyyətli yer tutur. Bu da minlərlə ailənin sosial vəziyyətinin yaxşılaşması yolunda bir təkandır. Əhalinin sosial təminat sisteminin daha da təkmilləşdirilməsi məqsədi ilə 2015-ci ilin 25 fevral tarixində "Ünvanlı dövlət sosial yardımı sisteminin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidenti tərəfindən imzalanmış fərmana əsasən sosial müavinətlərin artırılması məqsədi ilə müvafiq tədbirlər görülür [5]. Hər bir ailə üzvünə verilən ünvanlı sosial yardımın həcminın artması, aztəminatlı ailələrin sosial yardıma olan ehtiyacının müəyyənləşdirilməsi qaydalarının təkmilləşdirilməsi məqsədi ilə Nazirlər Kabinetinin 11.02.2016-cı il tarixli qərarı ilə "Ünvanlı dövlət sosial yardımın alınması üçün müraciət edilməsi, onun təyin olunması, verilməsi və verilməsindən imtina edilməsi Qaydaları"na da dəyişikliklər edildi. Nəticədə müraciət zamanı tələb olunan sənədlərin sayı 15-dən 3-ə endirildi. Bundan başqa, sosial yardımın verilmə müddəti 1 ildən 2 ilə artırıldı [2].

Regionlarda işsiz vətəndaşlara işsizlik müavinətinin verilməsi də əhalinin sosial müdafiəsi sisteminin gücləndirilməsi yönündə atılan müsbət addımlardan biridir. Əhalinin işlə təmin olunması məsələsi də va-

cib amillərdən biri olub, sosial siyasətin tərkib hissəsinə daxildir. Yəni məşğulluq əhalinin əksər hissəsinin sosial problemlərini öz əməyi hesabına həll etməsinə imkan verir. Eyni zamanda, əhalinin məşğulluğunun təmin edilməsi həm də əhalinin kəndlərdən şəhərə axınının, həmçinin iş dalınca xarici ölkələrə üz tutmasının qarşısının alınması istiqamətində də mühüm addımdır. Şəhid hərbi qulluqçuların ailələrinə, onların vərəsələrinə birdəfəlik ödəmələrin verilməsi də əhalinin sosial müdafiəsinin yaxşılaşdırılması sahəsində görülən tədbirlərdən biridir.

Ümumiyyətlə, xalqın sosial qayğılarının təmin olunması ilkin şərtdir. Regionlarda yaradılan yeni müəssisələrin, iş yerlərinin təşkil olunması buna əyani misaldır. Sosial, mədəni, infrastruktur obyektlərinin istifadəyə verilməsi, energetika və kommunal xidmətin səviyyəsinin əhəmiyyətli dərəcədə yaxşılaşması, bütövlükdə, regionları 10-15 il əvvəlki simasından fərqləndirir. Regionlarda yerli istehsal müəssisələrinin yaradılması işləri davam etdirilir. Bu müəssisələr əsasən, bölgə əhalisinin iş yerləri ilə təmin olunmasında mühüm rol oynayır.

Bütün ölkədə olduğu kimi, işğaldan azad edilən rayonlarımıza qayıdacaq sakinlərin sosial müdafiəsinin yaxşılaşdırılması məqsədilə də geniş tədbirlər planı mərhələli şəkildə reallaşdırılır. Çox qısa müddət ərzində respublika əhalisinin sosial müdafiəsinin optimal sistemi yaradılmış, şəxsin yaşayış yerindən asılı olmayaraq sosial xidmətlərin əlçatanlığı təmin edilmiş, qeyri-təbii sosial müdafiənin inkişafı üçün ilk addımlar atılmışdır. Əhalinin sosial müdafiəsinin idarə edilməsinin əsas hissəsi sosial müdafiə orqanlarının ictimai təşkilatlar və yerli özünüidarəetmə orqanları ilə qarşılıqlı əlaqəsidir.

Regionlarda əhalinin sosial müdafiə sisteminin modernləşdirilməsi istiqamətlərinə innovativ texnologiyaların tətbiqi əhəmiyyətli dərəcədə yardım edir: əhaliyə sosial dəstəyin göstərilməsi üçün yeni yanaşmalar, sosial tərəfdaşlığın fəal inkişafı, qeyri-dövlət qurumlarının fəaliyyətinə tətbiq olunan sektor xidmətləri, sosial məsuliyyətli bizneslərdən resursların cəlb edilməsi. Bir çox texnologiyaların tətbiqi müəyyən problemlərlə üzləşir, bunlar əsasən kadr çatışmazlığı, normativ-hüquqi bazanın olmaması, kifayət qədər resurs təminatı, aşağı motivasiya, sosial xidmət göstərən müəssisələrin fəaliyyətində tarazlığın pozulması və əhaliyə reabilitasiya və digər yardımların göstərilməsində ardıcıllıq.

Bu problemlərin həlli üçün dövlət səviyyəsində regionlarda əhalinin sosial müdafiəsi sisteminin idarəetmə modelinin məqsəd və vəzifələrinə uyğun dəyişdirilərək yeni mexanizmlərə və innovativ idarəetmə texnologiyalarına uyğunlaşdırılmasına zərurət var.

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Azərbaycan Respublikasının sosial müdafiə sistemi: Ali məktəblər üçün dərs vəsaiti*

*2. "Pensiya» yoxsa, «təqaüd»: terminlərin müharibəsi//«Qanun», Bakı, 2003, № 5, s. 15-18*

*3. Sosial proseslərin modelləri. Dərslik. Rus dilindən tərcümə. B.: 2016.*

*4. Воронцова, М. В. Социальная защита и социальное обслуживание населения: учебник для среднего профессионального образования / М. В. Воронцова, В. Е. Макаров; под редакцией М. В. Воронцовой. — 2-е изд., перераб. и доп. — Москва: Издательство Юрайт, 2024. — 332 с*

*5. https://e-qanun.az/framework/41320*

**ФАРИДА ДЖАБРАИЛОВА**
***Доктор философии по философии***

### Направления модернизации системы социальной защиты населения в регионах
### РЕЗЮМЕ

Социальная защита – это право человека, которое обеспечивает здоровье и безопасность доходов. В статье исследованы основные направления и этапы модернизации системы социальной защиты регионов. В этой сфере рассматриваются выявление проблем, анализ формирования и развития сферы социальной защиты, и эта становиться основой проектов и инициатив Государственного фонда социальной защиты.

**Ключевые слова:** *модернизация системы социальной защиты, информатизация отрасли, адресность, бытовой информационный банк, социальное обеспечение, оптимизация сети учреждений социального обслуживания, инновационные технологии повышения эффективности управления.*

**FARIDA JABRAYILOVA**
*Phd in philosophy*

**Directions for modernizing the social protection system in the regions**

**SUMMARY**

Social protection is a human right that ensures health and income security. The article examines the main directions and stages of modernization of the regional social protection system. In this area, identification of problems, analysis of the formation and development of the sphere of social protection are considered, and this becomes the basis of projects and initiatives of the State Social Protection Fund.

**Keywords:** *modernization of the social protection system, informatization of the industry, targeting, household information bank, social security, optimization of the network of social service institutions, innovative technologies to improve management efficiency.*

**XÜLASƏ**

Sosial müdafiə sağlamlıq və gəlir təhlükəsizliyini təmin edən insan hüququdur. Məqalədə regionların sosial müdafiə sisteminin müasirləşdirilməsinin əsas istiqamətləri, mərhələləri tədqiq edilir. Bu sahədə problemlərin müəyyən edilməsi, sosial müdafiə sektorunun formalaşması və inkişafının təhlili nəzərdən keçirilir ki, bu tədbirlər çox zaman Dövlət Sosial Müdafiə Fondunun layihə və təşəbbüsləri üçün əsas olur.

**Açar sözlər:** *sosial müdafiə sisteminin modernləşdirilməsi, sənayenin informasiyalaşdırılması, ünvanlılıq, məişət məlumat bankı, sosial təminat, sosial xidmət müəssisələri şəbəkəsinin optimallaşdırılması, idarəetmənin səmərəliliyinin artırılması üçün innovativ texnologiyalar.*